# WAYS OF TEACHING LACONIC SPEECH SKILLS TO PRIMARY CLASS STUDENTS

**Nushaba Agalarova**

Primary school teacher of "Evrika" lyceum, Baku city
E-mail: agalarovanusab@gmail.com
https://orcid.org/0009-0009-8615-5081

**Abstract.** The article talks about ways of forming speech culture and laconic language skills in primary school students. The presence of laconic language skills, which is one of the requirements of the modern era, is especially emphasized. The ability to convey an idea clearly and concisely is one of the important aspects for people. It is appropriate to start instilling the ability to express thoughts succinctly, both in written and oral form, from primary classes. The primary school teacher has a special role in students' acquisition of laconic speech habits. Many of the subjects taught in primary grades are assigned to the same teacher. Therefore, primary school teachers have more opportunities to teach students the ability to express information in a concise manner. According to the author, the ability to express information succinctly is the embodiment of the richness of a person's vocabulary. In this sense, it is important to enrich students' language before teaching them laconic language skills.

**Keywords**: laconic speech skills, speech etiquette, speech culture, rhetoric, intonation, communication, content line

**DOI:** 10.30546/2709-2488.2.2023.89
**To cite this article:** Agalarova N. (2023). Ways of teaching laconic speech skills to primary class students. *Journal of Preschool and Primary Education*, Vol. 243, Issue II, pp. 89-99.
**Article history:** received – 20.02.2023; accepted – 23.05.2023.

# İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNƏ LAKONİK NİTQ BACARIQLARININ AŞILANMASI YOLLARI

**Nüşabə Ağalarova**

Bakı şəhəri, "Evrika" liseyinin ibtidai sinif müəllimi
E-mail: agalarovanusab@gmail.com
https://orcid.org/0009-0009-8615-5081

**Annotasiya.** Məqalədə ibtidai sinif şagirdlərində nitq mədəniyyəti və lakonik dil bacarıqlarının formalaşdırılması yollarından söhbət gedir. Müasir dövrün tələblərindən biri olan lakonik dil bacarıqlarının vacibliyi xüsusi vurğulanır. Fikrin aydın və yığcam çatdırılması bacarığı insanlar üçün vacib cəhətlərdən biridir. Fikri həm yazılı, həm də şifahi formada lakonik ifadə etmək bacarıqlarının aşılanmasına ibtidai siniflərdən başlamaq məqsədə uyğundur. Şagirdlərin lakonik nitq vərdişlərinə yiyələnmələrində ibtidai sinif müəlliminin xüsusi rolu var. İbtidai siniflərdə tədris olunan fənlərin bir çoxu eyni müəllimə həvalə olunur. Buna görə də ibtidai sinif müəllimlərinin məlumatların lakonik şəkildə ifadə edilməsi bacarığının şagirdlərə aşılanması imkanları daha genişdir. Müəllifin fikrincə, məlumatı lakonik şəkildə ifadə etmək bacarığı insanın söz ehtiyatlarının zənginliyinin təcəssümüdür. Bu mənada şagirdlərə lakonik nitq bacarıqları aşılanmazdan əvvəl onların dilinin zənginləşdirilməsi vacibdir.

**Açar sözlər**: lakonik nitq bacarıqları, nitq etiketləri, nitq mədəniyyəti, ritorika, intonasiya, ünsiyyət, məzmun xətti.

**DOI:** 10.30546/2709-2488.2.2023.89
**Məqaləyə istinad:** Ağalarova N. (2023). İbtidai sinif şagirdlərinə lakonik nitq bacarıqlarının aşılanması yolları. *«Məktəbəqədər və ibtidai təhsil»*, № 2 (243), səh. 89-99.
**Məqalə tarixçəsi:** göndərilib – 20.02.2023; qəbul edilib – 23.05.2023.

## Giriş / Introduction

Şagirdlərdə elmi biliklərin, ədəbi dil normalarının, dil qaydalarının, davranış və nitq mədəniyyətinin bünövrəsi ibtidai siniflərdə qoyulur. İbtidai siniflər təhsilin təməl mərhələsi, ilkin bacarıqların mənimsənilməsi və formalaşması dövrü olmaqla, tədrisin sonrakı mərhələlərində nailiyyətlərin əldə olunmasında əhəmiyyətli təsirə malikdir. Ona görə də bu mərhələdə gələcəkdə vacib olan üniversal bacarıq və vərdişlərin aşılanmasına nail olmaq lazımdır. Nitq həm şifahi, həm də yazılı formada informasiyanın qəbul edilməsi, ötürülməsi və s. prosesləri yerinə yetirmək imkanlarına malik olan həyati bacarıqlardan biridir. Nitq prosesində qarşı tərəfi dinləyib-anlama, fikri şifahi və yazılı formada tam, aydın, rəvan, ədəbi, elmi, obrazlı şəkildə ifadə etmək, sualları cavablandırma bacarıqlarının şagirdlərə aşılanması vacibdir. Bacarıq və vərdişlərin formalaşdırılmasında, inkişaf etdirilməsində ibtidai sinif müəllimlərinin rolu böyükdür. İbtidai sinif müəllimi şagirdlərin məktəblə tanışlığı, məktəb qaydalarına, kollektivə adaptasiyası, bir neçə fənn üzrə elmi biliklərin və həyati bacarıqların aşılanması kimi çoxşaxəli fəaliyyətində elmi, etik və mədəni nitq bacarıqlarını ön planda tutur, bu prosesləri paralel inkişaf etdirməyə nail olur. Başqa sözlə – nitq mədəniyyətinin formalaşmasında ibtidai sinif müəlliminin rolu böyükdür.

## Əsas hissə / Main part

Nitq mədəniyyəti – nitqin ədəbi dil normalarına uyğun şəkildə, dilin ifadə vasitə və imkanlarından nitqin məqsəd və məzmununa müvafiq surətdə istifadə etmək bacarığıdır. Başqa sözlə, "Nitq mədəniyyəti danışıq və yazı zamanı orfoqrafik və orfoepik qaydalara, qrammatik qayda-qanunlara, üslub normalarına əməl etmək, zəngin söz ehtiyatına malik olmaq, nitqin etik normalarını gözləməkdir" [Abdullayev N., 2013]. Nitq mədəniyyətinə verilən bu təriflə nəzərdə tutulan standartların, həmçinin məzmun xətlərinin müqayisəli təhlili belə bir qənaətə gəlməyə əsas verir ki, nitq mədəniyyətinin təməli ibtidai siniflərdə qoyulur.

Nitq bacarıqlarına daxil olan məsələlərdən biri də fikrin lakonik ifadəsidir. Həm şifahi, həm də yazılı nitqin qısa, konkret və fikri tam ifadə etmək qabiliyyəti elmi biliklərin təqdim olunmasında və sosial ünsiyyətdə tədqirəlayiq hadisədir. İbtidai sinif müəllimi eyni sinifdə bir neçə fənni tədris etdiyi üçün onun müxtəlif fənlərdən olan elmi bilikləri lakonik formada ifadə etmək bacarıqlarını şagirdlərə aşılamaq imkanları genişdir. O, fənlərin tədrisi ilə yanaşı, sinif rəhbəri kimi də fəaliyyət göstərdiyi üçün dil bacarıqlarının formalaşmasında da həlledici rola malikdir. İstər məktəb illəri, istərsə də sonrakı dövrlərdə lakonik nitq bütün sahələr-

də çalışanlar üçün, eləcə də gündəlik həyatda ünsiyyət zamanı böyük əhəmiyyət kəsb edir. Buna görə də şagirdlərə lakonik dil bacarıqlarının aşılanması ibtidai sinif müəlliminin əsas vəzifə və məqsədlərindən biridir.

Təlim-tərbiyə prosesinin ilkin mərhələlərindən biri olan ümumi nitq və dil bacarıqlarının formalaşdırılması şagirdlərin nitq mədəniyyətinə yiyələnmələrini təmin etmək məqsədi daşıyır. Bu məqsədin reallaşdırılması bütün fənlərin tədrisi zamanı yerinə yetirilsə də, əsas Azərbaycan dili fənnidir. Azərbaycan dili fənninin tədrisi ilə ibtidai siniflərin sonunda ümumi nitq inkişafına nail olmaqla yanaşı, əlifbanın öyrənilməsi, oxu və yazı texnikasının, hüsnxət qaydalarının, düzgün, sürətli, şüurlu və ifadəli oxu üzrə ilkin bacarıqların mənimsənilməsi, lüğət ehtiyatının zənginləşdirilməsi, qrammatik qaydaların və ədəbi tələffüz normalarının mənimsədilməsi, ekspressiv nitq bacarıqlarının formalaşdırılması, öz xalqının dili, tarixi, əxlaqi-mənəvi keyfiyyətləri, mədəniyyəti, adət-ənənələri haqqında ilkin anlayışların yaradılması təmin olunur [Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili üzrə təhsil proqramı (kurikulumu) (I – XI siniflər)., 2013]. Şagirdlər ibtidai təhsil səviyyəsində məzmun xətləri üzrə dinləyib-anlama və danışma bacarıqlarına yiyələnir, yazılı və şifahi nitqdə dil qaydalarını mənimsəyirlər.

Fənlərin tədrisi prosesində müəllimin əsas məqsədi şagirdlərə dövlət proqramında nəzərdə tutulmuş materialların mənimsədilməsi, məzmun xətləri üzrə ümumi təlim nəticələrinin reallaşdırılmasıdır. Məzmun xətləri, Azərbaycan dili fənninin məqsəd və vəzifələrinə uyğun olaraq, təhsilin bütün pillələri üzrə – dinləyib-anlama və danışma, oxu, yazı, dil qaydalarından yerli-yerində, düzgün istifadə bacarıqlarının reallaşdırılmasını nəzərdə tutur. Həmçinin “... şagirdlərin şifahi və yazılı nitq bacarıq larının formalaşmasında mühüm rol oynayan ən zəruri linqvistik biliklərin öyrənilməsini, mədəni nitq üçün vacib sayılan mühüm tələblərin qavranılmasını, ədəbi dilin funksional və fərdi üslublarının səciyyəvi xüsusiyyətlərinin dərk olunaraq fərqləndirilməsini və təcrübədə tətbiqini təmin edir” [Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili üzrə təhsil proqramı (kurikulumu) (I – XI siniflər)., 2013]. Deməli, Azərbaycan dili dərslərinin əsas məqsədlərindən biri şagirdlərə aydın, rəvan, asan başa düşülən nitq bacarıqlarını aşılamaq, məlumatı qavraya bilmək, ötürmək və müəyyən yaddaş vasitələrində saxlamaq bacarıqlarının formalaşdırılmasıdır. Bütün bunlara nail olmaq üçün lazımsız söz yığınından uzaqlaşaraq, məlumatın mahiyyətini yığcam şəkildə, yəni lakonik ifadə etmək bacarıqlarının formalaşdırılmasıdır.

Lakonik nitq bacarıqları nədir?

Lakonik nitq bacarıqları müəyyən məlumatın mahiyyətinin yığcam şəkildə ifadə olunması, fikrin müxtəsər, qısa, konkret və aydın şəkildə ifadə olunmasıdır. Lakonik nitq bacarıqları nitq mədəniyyətinin əsas tərkib hissələrindən biri ol-

maqla yanaşı, digər nitq bacarıqlarının əsas keyfiyyətlərini də özündə birləşdirir. Belə ki, nitqin aydınlığı, düzgünlüyü, təmizliyi, zənginliyi kimi məsələlər nitqin lakonikliyində, yəni yığcamlığında əks olunur, məsələn, zəngin söz ehtiyatına malik olan insanlar bir neçə cümlə əvəzinə, bir neçə sözlə fikirlərini tam çatdıra bilirlər. Müşahidələrə əsaslanaraq demək olar ki, savadlı insanlar, o cümlədən, dərsə hazırlıqlı şagirdlər, adətən, fikirlərini yığcam ifadə edirlər.

Nitq mədəniyyəti ilə bağlı ədəbiyyatları araşdırarkən aydın olur ki, bütün dövrlərdə təlim-tərbiyə məsələlərində lakonik nitq bacarıqlarının aşılanması diqqət mərkəzində olmuşdur. Klassik ədəbiyyatda və digər sahələrdə lakonik nitq bacarıqlarının əhəmiyyətli tərəfləri diqqət mərkəzində saxlanılmışdır. Məsələn, Nizami Gəncəvi belə deyir:

Bir inci saflığı varsa da suda,
Artıq içiləndə dərd verir o da.

Sədi Şirazi də nitqin lakonikliyindən bəhs etmişdir:

Düşünüb, sonra de sözü, müxtəsər,
O qədər danışma, "bəsdir" desinlər.

Fəlsəfənin və ritorikanın – natiqlik sənətinin beşiyi olan qədim Yunanıstanda da lakonik danışıq bacarıqlarının aşılanmasına xüsusi əhəmiyyət verilirdi: "… yeniyetmələrə bir neçə sözlə çox şeyi ifadə etmək, cavablarda dəqiq və müxtəsər olmaq öyrədilirdi ki, buna "lakonik nitq" deyilirdi. Likurqa görə, uşaqlar uzun müddət dinməz dayanmağı öyrənsələr, dərin mənalı cavablar verməyə alışarlar. Sonralar spartalılar nitqin bu cəhətini daha da inkişaf etdirdilər" [Abdullayev N., 2013]. Lakonik nitq bacarıqlarının üstünlüyü ilə bağlı çoxsaylı nümunələr gətirmək olar.

Müasir təlim metodları şagirdlərə daha çox bacarıq və vərdişlərin aşılanmasına xidmət edir. Şagirdlər öyrəndiklərini yeri gəldikcə, şifahi və yazılı formada, lakonik şəkildə istifadə etməyi bacardıqlarını nümayiş etdirə bilməlidirlər. Lakonik nitq bacarıqları yalnız təlim materiallarının öyrənilməsində deyil, sosial münasibətlərdə, gələcək peşələrin öyrənilməsi ilə bağlı məsələlərdə də böyük əhəmiyyətə malikdir. Şagirdlərə nitq bacarıqlarının aşılanması ailədən, məktəbəqədər təhsil müəssisələrindən başlansa da, bütün şagirdlərin sistemli, davamlı təlim hazırlığı ibtidai siniflərdən başlayır. Bu baxımdan ibtidai sinif müəllimləri mütəmadi olaraq Azərbaycan dili fənni ilə yanaşı, tədris etdikləri digər fənlərin imkanlarından səmərəli şəkildə istifadə etməklə şagirdlərdə lakonik nitq bacarıqlarının yaradılmasına və inkişaf etdirilməsinə nail ola bilərlər.

## İbtidai siniflər səviyyəsində lakonik nitq bacarıqlarının formalaşdırılmasına dair dərs nümunəsi

**IV sinif. Azərbaycan dili**

**Mövzu:** “Az danışmağın gözəlliyi”

**Standartlar:**

1.1.2. Dinlədiyi fikirləri öz əlavələri ilə inkişaf etdirir.

1.2.1 Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir.

4.1.4 Sözləri qrammatik mənalarına görə fərqləndirir.

1.2.3 Nitqini canlı, obrazlı etmək məqsədi ilə məzmuna müvafiq jest və mimikalardan istifadə edir.

**Məqsədlər (**təlim nəticələri):

✓ Mətndəki bəzi sözlərin qrammatik mənasını fərqləndirir, təqdimatlarda iştirak edir.

✓ Terminlərin (*misra, bənd, ritm, qafiyə* və s. ) mənasını fərqləndirir, təqdimatlarda iştirak edir.

✓ Təqdimatlar zamanı jest və mimikalardan yerində istifadə edir, sözlərin leksik mənasını fərqləndirir.

✓ Dinlədiyi fikirlərə əlavələr edərək təqdimatlar edir, sözlərin mənasını nümunələrlə fərqləndirir.

**İş forması:** qrup işi, fərdi iş

**İş üsulu:** beyin həmləsi, müzakirə, təqdimat, rollu oyun

**İnteqrasiya:** H.b 3.1.2 Ünsiyyət mədəniyyətinə həsr olunmuş kiçik təqdimatlar edir.

**Resurslar:** dərslik, işçi vərəqələri, kartlar, İKT.

### Dərsin gedişi

Dərsə başlamazdan əvvəl bu gün əldə olunacaq nəticələr sinifdə elan edilir.

**Motivasiya.** Şagirdlərə aşağıdakı tapşırıq və suallarla müraciət olunur:

– “Danışmaq gümüşdürsə, danışmamaq qızıldır” atalar sözünə münasibətinizi bildirin.
– Doğrudanmı, həmişə az danışmaq lazımdır?
– Sizcə, atalar sözlərinin hansı xüsusiyyətləri onları qiymətli edir?
– Doğrudanmı, həmişə az danışmaq insanları daha dəyərli edir?

Şagirdlərdən aşağıdakı fikirləri təsdiqləyən cavablar almağa və onlarda fikirlər formalaşdırmağa nail olunur:

– İnsan çox danışmaqla sözü qiymətdən salır, lazım gəldikdə, susmaq vacibdir.
– Xalq müdrikliyinin ifadə vasitəsi olan atalar sözləri həm yığcam, həm də dərin mənalı olur. Atalar sözləri vasitəsi ilə dəyərli öyüd-nəsihətlər veri-

lir, müdrik fikirlər ifadə olunur.

– İnsanlarla ünsiyyət qurmaq, onlara doğru yol göstərmək üçün danışmaq lazımdır, ancaq nə olursa olsun, az danışıb, çox dinləməliyik.

Az danışmaq haqqında atalar sözləri soruşulur. Şagirdlər bildikləri atalar sözlərini söyləyir, bu sözlərin mənasını açıqlayırlar.

**Tədqiqat sualı.** Sual 1. Az danışmağın gözəlliyi nədədir və N. Gəncəvi öz əsərlərində bunu necə tərənnüm edir?

Sual 2. Mətndə olan sözlərin qrammatik mənalarını necə fərqləndirmək olar?

**Tədqiqatın aparılması.** Bu mərhələnin daha da operativ və səmərəli olması məqsədi ilə qruplarla iş forması daha önəmlidir. Bu məqsədlə şagirdlər 3 qrupa ayrılırlar, qruplara adlar verilir və hər qrup üçün bir lider seçilir. Qrup liderlərinə tapşırıqların yazıldığı zərflər təqdim olunur və tapşırığı yerinə yetirmək üçün vaxt elan olunur.

**Tapşırıq 1.** Verilmiş atalar sözünü izah edin. Atalar sözünün mahiyyətinə uyğun olaraq hekayəni 6–8 cümlə ilə elə yazın ki, məzmun tamamlansın.

**Tapşırıq 2.** Verilmiş atalar sözünü səsləndirmədən, onun əsasında hazırladığınız mətni ucadan oxuyun. Digər qrupun hazırladığı atalar sözünün izahına və tərtib etdiyi mətnə qulaq asın. Onlara hansı atalar sözünün verildiyini məzmuna uyğun təxmin edin.

Müəllim verilmiş vaxtın bitdiyini elan edir. Qrupun lideri verilmiş atalar sözünü izah edir. Qrupun digər üzvü birlikdə hazırladıqları mətni ucadan oxuyur.

***"Günəş" qrupu.*** **"**Yalançının evi yandı, heç kəs inanmadı".

İzah. Yalan danışmaq pis xüsusiyyətdir. İnsan yalan danışarsa, bir gün onun doğru sözlərinə də inanan olmayacaq.

**Mətn**. Kəmalə dərslərindən aldığı pis qiymətləri anasından gizlədirdi. Anası "dərslərindən neçə almısan?"– deyə soruşanda, "beş almışam" deyirdi. Bir gün ana Kəmalənin gündəliyinə baxanda onun yalan danışdığını bildi. Kəmalə səhvini başa düşdü. Dərslərini yaxşı oxumağa başladı, ancaq anası daha ona inanmır [İsmayılov R., Abdullayev S., Cəfərova D., Qasımova X., 2015].

***"Səma" qrupu.*** "Torpaq deyər: öldür məni, dirildim səni".

İzah**.** Zəhmət çəkməyən adam onun bəhrəsini görməz. Torpağı əkib-becərməsən, məhsul verməz. Zəhmət çəkib torpağı əkərsən, becərərsən, bol məhsul əldə edərsən.

**Mətn.** Bir atanın iki oğlu var idi. Oğullarından biri tənbəl, o biri zəhmətkeş idi. Ata onlara bağ hədiyyə etdi. Tənbəl oğul atasından qalan bağa baxmadı, bağ qurudu, oğul isə kasıbladı. Zəhmətkeş oğul isə atasından qalan bağı əkib-becərir. O, hər il bol məhsul əldə edir, kasıblıq çəkmədən yaşayır. Kasıblamış qardaşına da kömək edir. [İsmayılov R., Abdullayev S., Cəfərova D., Qasımova X., 2015].

***"Ulduz" qrupu.*** **"**Tək əldən səs çıxmaz".

İzah**.** Tək başına heç bir şeyə nail ola bilmərik, amma birlikdə hər bir çətin işin öhdəsindən gələrik.

**Mətn.** Bir ovçu bir dəstə göyərçini ovlamaq istəyirdi. O, göyərçinlərə tor qurmuşdu. Bir gün göyərçinlər tora düşdülər. Onlar toru fərqli istiqamətlərə dartır, amma xilas ola bilmirdilər. Sonra göyərçinlər hamısı birlikdə toru eyni istiqamətə çəkməyə başladılar və beləliklə, tordan xilas oldular. [İsmayılov R., Abdullayev S., Cəfərova D., Qasımova X., 2015].

Tapşırıqların təqdimatından sonra onların müzakirəsi təşkil olunur. Verilən tapşırıqlar əsasında aparılan ümumiləşdirmələr zamanı şagirdlər fikri həm yazılı, həm də şifahi şəkildə, yığcam və lakonik ifadə etmək bacarığının vacibliyi qənaətinə gəlirlər. Şagirdlərə bu bacarıqlara malik olmağın əhəmiyyəti izah olunur.

Dərsin növbəti mərhələsində "Uşaqlar, fikrinizcə, biz bu gün nə öyrənəcəyik?" sualından sonra yeni mövzunun adı ilə bağlı təxminlər dinlənilir. Elektron yazı lövhəsində bu sətirlər görünür:

Sözün də su kimi lətafəti var,
Hər sözü az demək daha xoş olar.

N.Gəncəvi, "Leyli və Məcnun"

Yeni mövzu, dahi N. Gəncəvinin "Az danışmağın gözəlliyi" şeri əvvəl müəllim, sonra şagirdlər tərəfindən oxunur. Şerin məzmunu izah olunur. Yeni sözlər seçilərək başqa cümlələrdə işlədilir.

**Mövzulararası inteqrasiya**. Şagirdlərin qrammatik və nəzəri biliklərini möhkəmləndirmək məqsədi ilə onlara keçilən mövzular üzrə suallar ünvanlanır:

– Şeir hansı janrda yazılıb?
– Nəzm əsərinin hansı xüsusiyyətləri var?
– Nəzm əsərində *bənd, misra, ritm, qafiyə* terminləri nəyi bildirir?
– Şeirdə hansı sözlər qafiyələnmişdir?

Qruplar üzrə iş qrammatik tapşırıqlarla davam etdirilir.

**Tapşırıq 3**. "***Günə***ş" qrupu. Aşağıdakı sözlərə sual verməklə onların hansı nitq hissəsinə aid olduğunu müəyyən edin: *gördü, xeyli, ucaboy, zəhmətkeş, yüzlərlə, ağıllı, qızmar, az-çox, günəbaxan, xəyal, irəli, Qarabağ.*

***"Səma qrupu".*** Hansı sözün yaxınmənalı qarşılığı mətnə uyğun deyil?

a) *saflıq – təmizlik;*
b) *artıq – çox;*
c) *oxşamaq – bənzəmək;*
d) *göy – səma.*

***"Ulduz" qrupu.*** Mətndə verilmiş misralarda işlənən sözləri cədvəldə yazın.

Yüz ulduz yansa da *göylərdə*, inan,
Bir G*ünə baş əymək xoşdur onlardan*.

N. Gəncəvi, "Leyli və Məcnun"

| Ad | Say | Hərəkət |
|---|---|---|
| | | |

**Tapırıq 4.** Hansı cümlədə "qoy" sözü mətndə nəzərdə tutulan mənanı ifadə edir? Hansı cümlədə "qoy" sözü köməkçi nitq hissəsi kimi işlənmişdir?

1. *Kitabı yerinə qoy və lövhənin qarşısına* çıx.
2. *Qoy, işimizi görək.*
3. *Məktubu elə yerə qoy ki, sonra tapa biləsən.*

**Məlumat mübadiləsi.** Qruplar tapşırıqları verilmiş zaman çərçivəsində yerinə yetirərək təqdimatlar etməyə başlayırlar. Bu zaman müəllim təqdimatlarla bağlı tövsiyələr verir və qrupların fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı meyarlar cədvəlini nümayiş etdirir. Qruplar bir-birinin fəaliyyətini meyarlar cədvəlinə uyğun qiymətləndirirlər. Bu zaman müəllim qiymətləndirmənin obyektiv və düzgün aparılmasına nəzarət edir.

**Qrupların qiymətləndirilməsi üçün meyarlar cədvəli**

| Qruplar \ Meyarlar | I qrup | II qrup | III qrup |
|---|---|---|---|
| İzahetmə və fərqləndirmə | | | |
| Təqdimetmə | | | |
| Fikri dəqiq ifadə etmə | | | |
| Əməkdaşlıq | | | |
| **Cəmi :** | | | |

**Məlumatın müzakirəsi** zamanı dahi Azərbaycan şairi N.Gəncəvinin "Az danışmağın gözəlliyi" şerinin hansı janrda yazılması aydınlaşdırılır. Nəzm əsərinin xüsusiyyətləri sadalanır, *bənd, ritm, qafiyə, misra* və s. sözlərin mənası müzakirə olunur. Şagirdlərin mövzu ilə bağlı əlavə sualları cavablandırılır.

**Nəticə və ümumiləşdirmə** mərhələsində az danışmağın gözəl xüsusiyyət olduğu, N. Gəncəvinin bu fikri bir neçə misra ilə çox gözəl və dəqiq ifadə etdiyi qənaətinə gəlinir. Qrammatik tapşırıqları yerinə yetirərkən şagirdlər bir sıra bacarıqlar – təqdimetmə, fərqləndirmə, fikri dəqiq və lakonik ifadə etmə bacarıqları nümayiş etdirdilər.

**Yaradıcı tətbiqetmə** mərhələsində şairin "Sultan Səncər və qarı", "Kərpickəsən kişinin dastanı" şeirləri şagirdlər tərəfindən rollarla təqdim olunur. Hər hansı əsərin səhnələşdirilməsi rola uyğun jest və mimikalardan düzgün istifadə bacarıqlarını inkişaf etdirir. Fikrin sözsüz, jest və mimikalar vasitəsi ilə çatdırıl-

ması bacarığı mənimsənilir. Yaxşı olar ki, keçilən mövzunun planı tərtib olunsun. Plan əsasında mətnin nağıl edilməsi və ya yazılması, həmçinin mövzuya aid rəsm çəkmək və ya müxtəlif materiallardan maketlər düzəltmək, müəyyən rəsm əsərlərinin və ya şəkillərin adlandırılması və s. tapşırıqlar lakonik nitq bacarıqlarının inkişaf etdirilməsinə xidmət edir.

## Nəticə / Conclusion

Deyilənlərə əsaslanaraq belə bir nəticəyə gəlirik ki, ibtidai sinif müəllimi lakonik nitq bacarıqlarının aşılanması məqsədi ilə tədris etdiyi bütün fənlərin imkanlarından istifadə etmək bacarıqlarına malikdir. Ana dili fənninin imkanları isə daha genişdir. İbtidai təhsil səviyyəsinin sonunda şagird bir sıra lakonik nitq bacarıqlarına malik olur :

- keçilən mövzunun məzmununu şifahi və yazılı şəkildə yığcam ifadə edə bilir;
- fikrini az sözlə ifadə etmək bacarığı nümayiş etdirir;
- fikrini ədəbi dildə ifadə edir;
- müdrik kəlamlar və atalar sözlərinin mənasını anlayır, öz fikrini kəlamlar və atalar sözləri ilə ifadə edə bilir;
- az vaxt ərzində məzmunca çox məlumat çatdırır;
- yersiz təkrarlara yol vermir;
- məzmundan kənara çıxmır və məzmundan uzaqlaşmır;
- müəllim sinifdə olan şagirdlərin hər birinin fikrini dinləmək üçün şərait yaradır.

Digər fənlərin tədrisi prosesində də lakonik nitq bacarıqları xüsusi əhəmiyyətə malikdir, məsələn, riyaziyyat dərslərində məsələnin planının tərtib edilməsi, qısa şərtinin yazılması, onun məzmununu əks etdirən sxem və ya şəkillərin çəkilməsi bir tərəfdən məsələnin həlli yolunun asan qavranılmasını, digər tərəfdən fikri lakonik ifadə etmək bacarıqlarını aşılayır.

**Məqalənin aktuallığı.** Lakonik nitq bacarıqları nitq mədəniyyətinin bir istiqaməti kimi hər zaman aktual olmuşdur. Müasir təlim metodları, ənənəvi təlim metodlarından fərqli olaraq, şagirdlərdən keçilən mövzunu tam, təfsilatı ilə nağıl etmək tələbi qoymur, mövzunun əsas mahiyyətini, məzmununu mənimsəməklə biliklərin bacarıqlara çevrilməsini təmin etmək məqsədi daşıyır. Bu isə lakonik nitq bacarıqları tələbini aktuallaşdırır.

**Məqalənin elmi yeniliyi.** Məqalə müasir dərs modelinin tətbiqinə yaradıcı yanaşma və yeni təlim metodlarının peşəkar tətbiqi ilə diqqəti çəkir. İbtidai sinif müəllimi nitq bacarıqları ilə bağlı məsələləri, o cümlədən, lakonik nitq bacarıqlarının mənimsənilməsini yalnız Azərbaycan dili dərslərində apardığı təmrinlərlə

yekunlaşdırmır, həm də digər fənlərin tədrisi prosesində də mövcud imkanlardan səmərəli şəkildə istifadə açıqlanır.

**Məqalənin praktik əhəmiyyəti.** İbtidai sinif şagirdlərində düzgün nitq bacarıqlarının formalaşdırılması istiqamətində tədqiqat işlərinin aparılması hər zaman aktual olduğu üçün mövzu ibtidai sinif müəllimləri, təcrübə keçən tələbələr, magistrlar, bakalavrlar üçün praktik əhəmiyyətə malikdir.

## İstifadə olunmuş ədəbiyyat / References

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili üzrə təhsil proqramı (kurikulumu) (I – XI siniflər). (2013).
2. Abdullayev N. (2013). Nitq mədəniyyətinin əsasları. Bakı
3. İsmayılov R., Abdullayev S., Cəfərova D., Qasımova X. (2015). Azərbaycan dili (dərslik, IV sinif).
4. İsmayılov R., Abdullayev S., Qasımova X. (2015). Müəllim üçün metodik vəsait (IV sinif).
5. Kəlbəliyev Ə. (2002). Azərbaycan dili dərslərində şagirdlərin nitq etiketlərindən düzgün istifadə bacarığının aşılanması imkanları. Bakı.
6. Nizami Gəncəvi. (2004). "Leyli və Məcnun". Bakı, "LİDER NƏŞRİYYAT".
7. Rüstəmov F. (2010). Pedaqogika tarixi. Bakı.